

Sidqi Ruhulla-125

# Böyük sənətkar

**Ruhulla Fətulla oğlu Axundov (Sidqi Ruhulla) 1886-cı il mart ayının 28-də Bakının Buzovna kəndində müəllim ailəsində dünyaya göz açmışdır. İlk təhsilini kənddə, molla məktəbində alan Sidqi Ruhulla sonra Bakıda tacir şagirdi işləmişdi. On dörd-on beş yaşlarında "Kosa-kosa" xalq oyunlarında, şəbih tamaşalarında çıxış etmişdi.**

**İlk dəfə Hüseyn Ərəblinskinin quruluş verdiyi Nəcəf bəy Vəzirovun "Adı var, özü yox" tamaşasında Telli rolunda çıxış etmişdir.**

Aktyor Namiq Kamalın "Vətən" dramındakı Sidqi rolunda böyük uğur qazandığına görə həmin adı özünə təxəllüs götürmüşdü.

Sidqi Ruhulla "Nicat", "Səfa", az müddət "Həmiyyət" cəmiyyətlərinin teatr truppalarında, Abbas Mirzə Şərifzadənin rəhbərlik etdiyi "Müsəlman artistləri ittifaqı"nda, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli qardaşlarının müdriyyəti"ndə, Hüseyn Ərəblinskinin müxtəlif teatr dəstələrində, özünün yaratdığı dəstə-truppada iştirak etmişdi.

1913-cü ildə Moskva teatrlarında təcrübə keçən Sidqi Ruhulla İranda və Gəncədə "Ərəbli", "Ərəblinski" imzaları ilə tamaşalar hazırlamış və özü də baş rollarda çıxış etmişdir.

Aktyor İranın Rəşt, Qəzvin, Xoy şəhərlərində ilk teatr təşkilatçısı olmuş, Təbrizdə səhnə sənətinin təbliği məqsədilə "Xeyriyyə" cəmiyyəti yaratmışdır. Azərbaycanın qədim paytaxtı olan Təbriz şəhərində peşəkar teatrın təşəkkülü və inkişaf yolu Sidqi Ruhullanın adı ilə bağlıdır.

O, Özbəkistan Respublikasının paytaxtı Daşkənddə Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" (30 dekabr 1916) və "Əsli və Kərəm" (13 yanvar 1917) operalarını yerli özbək və tatar teatr həvəskarlarının iştirakı ilə tamaşaya hazırlamışdı. Tiflisdə isə məşhur bəstəkar Fikrət Əmirovun atası Məşədi Cəmil Əlibəyovun "Seyfəlmülk" operasını səhnəyə qoymuşdu.

Üç yüzdən çox irili-xırdalı rol oynayan Sidqi Ruhulla həm ayrı-ayrı truppalarda, həm də dövlət teatrlarında rejissorluq etmişdir. O, Azərbaycan klassiklərindən, demək olar, hamısının pyeslərində bir neçə quruluşda əsas rolları oynamışdır. Sidqi Ruhulla gənc aktyorların yetişib formalaşmasında, sənətin özünəməxsus incəliklərini mənimsəmələrində heç kəsdən təcrübə və bacarığını əsirgəməmişdir.

Romantik xarakterlərdə səhnəyə çıxan Sidqi Ruhullanın daxili ehtirası, səsinin qəltanlı və zabitəli olması elə ritmdə köklənirdi ki, ifaçını aktyor kimi sevməmək, onun istedadına şübhə etmək mümkün deyildi. Hətta Sidqinin mənfi xarakterli rollarında da tamaşaçı aktyorun yaradıcılıq ehtirasına məftun olurdu.

Akademik Milli Teatrının 1948 və 1959 -cu illərdə Moskva qastrolları zamanı Sidqi Ruhullanın oyunu dünyaşöhrətli rus teatrşünasları tərəfindən çox yüksək qiymətləndirilmişdihr.

Aktyor "Şərqin səhəri" tamaşasındakı Ağalarov roluna görə 1938-ci ildə bir qrup yaradıcı heyətlə birgə Stalin mükafatına layiq görülmüşdür.

Sidqi Ruhulla milli teatrın inkişafında xidmətlərinə görə respublikanın əməkdar artisti (26 mart 1931), xalq artisti (4 dekabr 1938) və SSRİ xalq artisti (22 iyul 1949) fəxri adları ilə təltif olunmuşdur.

**Azərbaycan teatrının ən cəfakeş, fədakar, maarifpərvər sənətkarı 1959-cu il may ayının 5-də vəfat etmiş və Bakıda Fəxri Xiyabanda dəfn edilmişdir.**

**S. QULİYEVA**